AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 14/21

Bakı şəhəri 20 dekabr 2017-ci il

AMEA-nın müxbir üzvü Qərib Calalovun
80 illik yubileyi haqqında

2017-ci il noyabr ayının 28-də AMEA-nın müxbir üzvü, görkəmli neftçi-alim Qərib İsaq oğlu Calalovun anadan olmasının 80 ili tamam olmuşdur.

Qərib Calalov 1937-ci ildə Şəki rayonunun Baş Göynük kəndində ziyalı ailəsində anadan olmuşdur. O, 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakültəsini bitirmişdir. Qərib Calalov 1967-ci ildə namizədlik, 1991-ci ildə isə doktorluq dissertasiyaları müdafiə etmiş, 1992-ci ildə professor elmi adını almışdır. 2001-ci ildə isə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Qərib Calalov əmək fəaliyyətinə 1960-cı ildə AMEA-nın Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda (DNQYPİ) başlamış, orada kiçik elmi işçi, mühəndis, böyük mühəndis, böyük elmi işçi, aparıcı elmi işçi, baş elmi işçi və laboratoriya müdiri vəzifələrində işləmişdir. O, hazırda AMEA-nın Neft və Qaz İnstitutunda “Quyu-lay sistemlərinin hidrodinamikasının nəzəri problemləri” şöbəsinin rəhbəri vəzifəsində çalışır.

Qərib Calalov yeraltı hidrodinamika, neft və qaz yataqlarının işlənməsi elmi istiqamətlərinin müxtəlif sahələri üzrə tanınmış alimdir. Onun yarım əsrdən artıq fəaliyyəti deformasiya olunan böyük yatma dərinlikli məsaməli, çatlı və çatlı məsaməli neft və qaz yataqlarının kollektorlarında baş verən süzülmə proseslərinin hidroqazdinamiki modelləşdirilmə üsullarının elmi əsaslarının yaradılması, karbohidrogen yataqlarının işlənilməsi zamanı yüksək lay təzyiqi şəraitində süzülmə-tutum parametrlərinin eksperimental üsulla öyrənilməsi, elmi nəticələrin praktikaya tətbiqi məsələləri ilə bağlıdır. Q.Calalovun bilavasitə iştirakı ilə ilk dəfə olaraq, ABŞ-ın YUNOKAL kompaniyası ilə müştərək çoxtəbəqəli

neft yataqlarında süzülmə proseslərinin kompleks tədqiqinə imkan verən proqram paketləri yaradılmışdır.

Qərib Calalovun fundamental tədqiqatlarının nəticələrinin əksəriyyəti müxtəlif illərdə keçmiş SSRİ və Azərbaycan Elmlər akademiyalarının ən mühüm nəticələri sırasında öz əksini tapmışdır. Q.Calalov 236 elmi əsərin, o cümlədən 5 monoqrafiyanın müəllifidir. Onun yüksəkixtisaslı kadr hazırlanmasında böyük əməyi olmuşdur.

Qərib Calalov uzun müddət Azərbaycan EA-nın "Xəbərlər" (Yer elmləri seriyası) jurnalının məsul katibi, Azərbaycan EA-nın Yer Elmləri Bölməsinin Redaksiya Nəşriyyat Şurasının və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Yer elmləri seksiyasının elmi katibi və ekspert Şurasının üzvü, AMEA-nın Yer Elmləri Bölməsinin akademik-katibinin müavini vəzifələrində fəaliyyət göstərmişdir.

AMEA-nın müxbir üzvü Qərib Calalovun elmi fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, akademik İ.M.Qubkin adına mükafat, "Şöhrət" ordeni və "Əmək veteranı" medalı, 1997 və 2007-ci illərdə AMEA-nın Rəyasət Heyətinin Fəxri Fərmanları və bir sıra digər fəxri fərmanlarla qiymətləndirilmişdir.

AMEA-nın müxbir üzvü Qərib Calalovun neft və qaz yataqlarının işlənməsinin nəzəriyyə və praktikası sahəsində xidmətlərini nəzərə alaraq və anadan olmasının 80 illik yubileyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın müxbir üzvü Qərib Calalov 80 illik yubileyi münasibətilə Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri Fərmanı ilə təltif edilsin.
2. AMEA-nın Neft və Qaz İnstitutuna (geologiya-mineralogiya elmləri doktoru Vaqif Qurbanov) tapşırılsın ki, institutda AMEA-nın müxbir üzvü Qərib Calalovun 80 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilsin.
3. AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması idarəsinə (Zülfüqar Fərzəliyev) tapşırılsın ki, AMEA-nın müxbir üzvü Qərib Calalovun həyat və yaradıcılığı ilə bağlı materialların kütləvi informasiya vasitələrində işıqlandırılması təmin edilsin.
4. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti — akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi — akademik Rasim Əliquliyev